# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№345/2** **30 iyun 2022-ci il**

## Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları barədə

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasında (2021-2030-cu illər)” həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin təqvim planının 14-cü “Auditin tənzimlənməsi, təşkili və aparılmasına dair metodik vəsait və tövsiyələrin hazırlanması”, 20-ci “Auditorların maliyyə monitorinqi orqanlarına müvafiq məlumatların təqdim edilməsi ilə əlaqədar risklərin aşkar edilməsi və ümumiləşdirilməsi”, 28-ci “Monitorinqin avtomatlaşdırılmış (kompüterləşdirilmiş) metodların tətbiqi”, 32-ci “Risklərin qiymətləndirilməsi ilə bağlı tətbiq olunan tədbirlərin səviyyəsinin qiymətləndirilməsi” bəndlərinin, Palatanın 2022-ci il üzrə iş planının 1.2.3-cü “Düzgün olmayan auditor rəyi verən auditorların yüksək risk qrupuna daxil edilməsi və nəzarətə cəlb edilməsi mexanizminin işlənib hazırlanması” bəndinin və Palata sədrinin 2022-ci il 11 fevral tarixli 1/11 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Plan-qrafik”in 1.1-ci “Auditorlar Palatası üzrə risk əsaslı nəzarət qaydalarının hazırlanması və təsdiq olunması” bəndinin icrası məqsədilə Palatanın Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları”nın layihəsi bəyənilsin (əlavə olunur).
2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki, üç ay müddətində “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları” əsasında auditor təşkilatlarının və sərbəst auditorların risk qrupları üzrə bölüşdürülməsi təmin edilsin.
3. Palatanın rəhbərliyinə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, Y.Namazəliyev, N.Talıbov) və struktur bölmələrinə (V.Rəhimov, E.İbrahimov, V.Cavadov, E.Behbudova, Z.Almazov, R.Cəfərli) tapşırılsın ki, “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları” üzrə yüksək risk qrupuna daxil ola biləcək auditorlar barədə məlumatların Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) operativ olaraq təqdim edilməsi təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları”nın auditorlara çatdırılması təmin edilsin.
5. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və “Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları”nın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**